**Zaur Vedili**

# Həmişə yaşardı Bəhruz

Gözəl rəssam Bəruz Kəngərlinin unudulmaz xatirəsinə

Rənglər dünyasına qərq olan gündən,
O sirli aləmə baxmayıb gendən.
Ömrünü vədəsiz bürüsə də çən,
Yenə hər fəsildə bahardı bəhruz.

Heyif , az yaşadı o sənət zəri,
Çox vaxtsız bağlandı ömür dəftəri.
Qədim Nuh yurduna illərdən bəri,
Rənglər dünyasında vüqardı Bəhruz.

Ona ilham verdi əlvan boyalar,
Ona paklıq verdi çaylar, dəryalar.
Ona vüqar verdi dağlar , qayalar,
Kəmkidi, Murovdu, Qoşqardı Bəhruz.

Bəxtindən xoş günlər olsa da sürgün,
Heç onu unutmaq olarmı mümkün?
Otuz yaş nədir ki , bir insan üçün?!
Gözdə nur, ürəkdə qubardı Bəhruz.

Rənglərin gözüylə baxıb cahana,
Hər rəng bəxş eləyib bir ömür ona.
Mümkün deyil çata bu ömür sona,

Ölməyib həmişə yaşardı Bəhruz.